

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 63 (21.215)

2 aprel 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Qazaxıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Amangeldı Jumabayevi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Səfir Amangeldı Jumabayev qeyd etdi ki, dövlətimizin başçısının həyata keçirdiyi müdrik daxili və xarici siyasət onda böyük təəssürat yaradıb. O, səfir kimi fəaliyyəti müddətində əməksevər və qonaqpərvər Azərbaycan xalqının ona daim səmimi münasibət bəslədiyini vurğulayaraq ölkəmizdəki diplomatik fəaliyyəti dövründə səfirliyin işinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin dinamik şəkildə inkişaf etdiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Amangeldı Jumabayevin ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, inteqrasiya proseslərində və digər sahələrdə daha da genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirərək ona gələcək fəaliyyətində uğurlar arzuladı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Kinematoqrafçılar İttifaqının sədri, kinorejissor Nikita Mixalkovu qəbul edib.



## Müşavirədən irəli gələn vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədən irəli gələn vəzifələrin müzakirə edilməsi məqsədilə Naxçıvan Dövlət Texniki Kollecində keçirilən iclası giriş sözü ilə kollecin direktor əvəzi Asəf Ruşanov açıb.*

O, sözügedən müşavirədə elm və təhsil müəssisələri qarşısında qoyulan vəzifələrdən danışıb, verilən tövsiyə və tapşırıqların mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, elm və təhsil müəssisələri üçün yaradılan şərait, elmin və təhsilin inkişafına göstərilən dövlət qayğısı bu sahədə fəaliyyət göstərənlərin məsuliyyətini daha da artırır. Kollecdə aparılan tədris prosesinin nəticəliliyi, səmərəliliyi əsas şərtlərdən biridir.

Müəllimlərin kredit sistemi ilə tədris aparmaları, tədrisin düzgün təşkil olunması, nümunəvi dərslərin keçilməsinə diqqət göstərilməsi, təhsil prosesində informasiya-kommunikasiya texnologiyalarından istifadənin vəziyyəti haqda da danışan Asəf Ruşanov keçilən açıq dərslərin tədrisin səmərəliliyinin artırılmasına müsbət təsir göstərdiyini bildirib, tələbələrin göstəricilərinin artırılmasında, onların ixtisasa yiyələnmələrində təcrübə dərslərinin rolu haqda danışıb.

Tədris prosesində buraxılan nöqsanlara da toxunan Asəf Ruşanov bildirib ki, dərslərdə məntiqi təhlilə yer verilməli, tələbələrdə mütaliə vərdişlərinin artırılmasına, onlara vətənpərvərlik hislərinin aşılanmasına, dərsə davamiyyətə xüsusi diqqət yetirilməlidir.

Sonra kollecin müəllimlərindən Surayyə Ələkbərovanın və Rəfail Abdullayevin çıxışları olub.

## Yeni elektrik yarımstansiyalarında son tamamlama işləri görülür

***Son illər muxtar respublikamızda elektrik enerjisinin istehsalı və dayanıqlı elektrik enerjisi ilə təchizat sahəsində kompleks tədbirlər həyata keçirilir, yeni su elektrik stansiyaları tikilir, elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılır.***

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru Yasin Səfərovun verdiyi məlumata görə, cari ilin ötən dövründə də bu işlər uğurla davam etdirilib. Araz çayı üzərində tikilən 36 meqavat güclü Ordubad Su Elektrik Stansiyasında işlər qrafikə uyğun davam etdirilib. Layihəyə uyğun olaraq, təmizləyici bəndin çökəltmə hovuzunda 200 min kubmetr qazıntı işindən 100 min kubmetri qazılıb, 53 min kubmetr betonlanıb. 12 min 400 metr uzunluğunda ötürücü kanalda 9 min 200 metr kanal qazılıb, qazılmış kanalın 5 min 130 metr hissəsi betonlanıb, sel keçidlərinin 90 faizində işlər tamamlanıb. Həmçinin yükləmə hovuzunda qazıntı işləri başa çatdırılıb. Yaxın vaxtlarda betonlama işlərinə başlanılacaq. Layihəyə əsasən, ərazidə stansiya binası inşa olunacaq, turbinlər, generatorlar və digər qurğular sifariş veriləcək, transformator yarımstansiyası və ötürücü elektrik verilişi xətti çəkiləcək.

Müasir avadanlıqlarla təmin olunan yeni yarımstansiyaların tikintisi də diqqət mərkəzində saxlanılıb, bu ilin fevral ayında Kəngərli rayonu ərazisində 35 meqavolt-amper güclü yeni 110 kilovoltluq "Qıvraq" yarımstansiyasında tikinti-quraşdırma işləri başa çatdırılıb. Burada yeni 10 meqavolt-amper güclü "Zaporojtransformator" Açıq Səhmdar Cəmiyyətindən alınmış transformator və başqa yarımstansiyada istismar olunmuş 25 meqavolt-amper güclü transformator, Almaniyadan alınmış "Alstom" markalı eleqaz açarları, ayırıcılar, gərginlik və cərəyan transformatorları, boşaldıcılar, Fransanın "Şneyder Elektrik" firmasının eleqaz açarları olan 35 və 10 kilovoltluq müasir hücrələr, idarəetmə və mühafizə panelləri quraşdırılıb. Hazırda yarımstansiyada 10 kilovoltluq çıxış kabellərinin çəkilməsi və son sınaq-sazlama işləri görülür. Eyni zamanda Kəngərli rayonunda Qıvraq nasos stansiyasının elektrik təchizatı üçün yeni 35/6 kilovoltluq 6300 kva güclü transformator yarımstansiyası quraşdırılır.



Quruculuq tədbirləri Babək rayonunu da əhatə edib, 1260 kva güclü 35/10 kilovoltluq yeni "Nehrəm" yarımstansiyasında tikinti-quraşdırma işləri başa çatdırılıb. Burada Ukrayna Respublikasından alınmış 6300 kva güclü və istismarda olmuş 6300 kva güclü transformator, müasir eleqaz açarları, 35 kilovoltluq hücrələr, ayırıcılar, 10 kilovoltluq eleqaz açarlı müasir hücrələr, idarəetmə, rele mühafizəsi və avtomatika qurğuları, kondensator batareyaları qoyulub. Yarımstansiya üçün yeni bina tikilib, növbətçi heyətin iş şəraiti xeyli yaxşılaşdırılıb. Hazırda yükün yeni yarımstansiya üzərinə köçürülməsi və tamamlama işləri həyata keçirilir.

*Müasir dövrdə tikinti işlərinin mövcud norma və qaydalara uyğun olaraq aparılmasının təmin edilməsi ən aktual məsələlərdəndir.*

## Tikinti işlərinə dövlət nəzarəti artırılıb

"Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 yanvar 2015-ci il tarixli Fərmanından irəli gələn vəzifələrin icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən ötən dövr ərzində, müvafiq olaraq, bir sıra tədbirlər həyata keçirilib. Belə ki, idarə tərəfindən muxtar respublikanın yerli icra hakimiyyəti orqanlarının müvafiq qurumları, tikinti subyektlərinin məsul şəxsləri, eləcə də tikinti materiallarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslərlə görüşlər təşkil edilib, qaydalardan irəli gələn məsələlərin icrası ilə bağlı olaraq müvafiq tövsiyələr verilib, metodik köməkliklər göstərilib.

İdarədən verilən məlumata görə, hazırda tikintisi davam etdirilən obyektlərdə yoxlama-nəzarət funksiyaları və istifadə olunan tikinti materiallarının laboratoriya analizləri həyata keçirilir. Tikintisinə yeni başlanacaq 15 obyektə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə həmin obyektlərin tikinti sahələrinin mühəndis-geoloji şəraitinin öyrənilməsi və işçi layihələrinin konstruktiv və dayanıqlılıq baxımından ekspertizadan keçirilməsinə başlanılıb. Eyni zamanda yerli icra hakimiyyəti orqanları tərəfindən tikintisinə icazə verilmiş vətəndaşlara məxsus 14 fərdi yaşayış evinin tikintisinə müvafiq qaydalara uyğun olaraq dövlət nəzarətinin həyata keçirilməsi davam etdirilir.

## Daha bir dairəvi yol yenidən qurulur

***Bir neçə ildir ki, quruculuq tədbirlərinin geniş vüsət aldığı muxtar respublikada əhalinin və nəqliyyatın təhlükəsizliyini və intensiv hərəkətini təmin edən yol tikintisi də üstün istiqamət verilən sahələrdən birinə çevrilib. Belə tədbirləri görəndə qeyri-ixtiyari olaraq "Abad yurd yolundan tanınar" deyimini xatırlayırsan.***



Yolların əsaslı təmiri, yenidən qurulması və müasir standartlara cavab verməsi istiqamətində həyata keçirilən tədbirlər Babək rayonunu da əhatə edib. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 5 mart tarixli Sərəncamına uyğun olaraq, rayonda 8 min nəfər sakinin yaşadığı 13 kənd yaşayış məntəqəsini əhatə edən və ümumi uzunluğu 26 kilometr olan Hacıvar-Vayxır-Sirab avtomobil yolu ötən il istifadəyə verilib.

Cari ildə də rayonda yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 27 avqust 2014-cü il tarixli Sərəncamına uyğun olaraq, adıçəkilən marşrutlar üzrə avtomobil yolu yenidən qurulur. Bu məqsədlə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat ayrılıb. Yol tikintisi "Gəmiqaya Yol, Su, Enerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. Yenidən qurulan yol otuz bir min nəfər sakinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir.

İş icraçısı Ramil Əsədov bildirdi ki, yolun yenidən qurulması üçün əraziyə kifayət qədər texnika və işçi qüvvəsi cəlb olunub. Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun uzunluğu 35 kilometrdir. İlk olaraq yolun genişləndirilməsi həyata keçirilib. Torpaq-bərkitmə işləri aparılıb, ehtiyac duyulan yerlərdə su keçidləri qoyulub. Yol kənarlarındakı kanallar və su arxları qaydaya salınır. Hazırda 20 kilometr məsafədə yola asfalt döşənməsi üçün son hazırlıq işləri görülür. İşin keyfiyyətlə yerinə yetirilməsinə və lazımi təhlükəsizlik qaydalarına əməl edilməsinə ciddi nəzarət olunur.

**Xəbərlər şöbəsi**

# Kənd təsərrüfatı ili



*Şərur muxtar respublikamızın məhsuldar və geniş torpaqları olan bölgəsidir. Min illər boyu babalarımız bu ərazidə taxıl, pambıq, üzüm kimi qiymətli bitkilər becərib, hər cür nemət yetirən bağ-bağatlar salıblar. Bu rayon ötən onilliklərdə respublikamızın qabaqcıl kənd təsərrüfatı bölgələrindən biri olub, xüsusən taxılçılıq, üzümçülük rayonu kimi tanınıb. Dağ havası ilə aran Günəşinin, Arazla Arpaçayın qovuşduğu bu yerdə insan nəyə desən, qadirdir. Bunu hər il qazanılan uğurlar da sübut edir. Şərur aran və dağlıq zonadan ibarətdir. Buranın özünəməxsus iqlimi var: qışı soyuq, yayı isə, necə deyərlər, qorabişirən.*

## Şərurun yaz günləri

Artıq Şərur kəndlisi ötən ilin sonlarının, bu ilin əvvəllərinin quraqlığını unutmaq üzrədir. Mart ayının ikinci yarısından havaların yağışlı keçməsi torpağa əsl məlhəm olub. Düdəngəli fermer Aqil Məmmədovun təbirincə desək, kəndlinin əkdiyindən, səpdiyindən əvvəl gördüyü işə qəlbində inam, ümid göyərməlidir. Yoxsa torpaqdan gözlədiyini ala bilməz. Torpaq adamı deyir ki, yağış da, qar da vaxtında və qədərində yağsa, əsən külək qasırğaya dönməsə, zəhmətkeş insan üçün əkib-becərməyə, xeyir-bərəkət götürməyə nə var ki... Hər şey öz ölçüsündə olanda torpağın məhsulu, xeyir-bərəkəti də artır.

Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Kamal Ələkbərov söhbət zamanı bildirdi ki, dövlətin göstərdiyi qayğının müqabilində uğurlu nəticələr qazana bilmişik. Ancaq nailiyyətlərimiz daha yüksək olmalıdır. Obyektiv səbəblər öz yerində, lakin qeyd etmək lazımdır ki, hərdən məhsuldarlığın aşağı olmasını öz yaxasını kənara çəkmək üçün “əlverişsiz hava şəraiti”nin ayağına yazmağa cəhd edən bəzi kənd adamları da vardır. Torpaqsa heç bir bəhanəni, laqeydliyi sevmir, qəlbini ona verənlərdən xeyir və bərəkətini əsirgəmir.

Böyük iqtisadi potensiala malik olan bölgədə 81 min 114 hektar ümumi torpaq fondunun 16 min 813 hektarı əkinəyararlıdır. Bu torpaqlardan səmərəli istifadə olunması üçün mühüm tədbirlər həyata keçirilir. O da fərəhlidir ki, son illər istər əkinçilik, istərsə də heyvandarlıq məhsulları istehsalında yüksək artım qeydə alınır. Rayonun əməkçiləri muxtar respublikada ərzaq bolluğu yaradılmasına hər il sanballı töhfələr verirlər.

Dövlət qayğısının nəticəsidir ki, keçən il rayonun 1231 nəfər torpaq mülkiyyətçisinə buğda istehsalının stimullaşdırılması məqsədilə 297 min 160 manat yardım verilib, 1486 ton pulsuz mineral gübrə paylanılıb. “ Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Şərur bazası tərəfindən torpaq mülkiyyətçilərinə 50 min 685 manatlıq xidmət göstərilib, rayonun fiziki və hüquqi şəxslərinə lizinq yolu ilə 57 ədəd texnika və texnoloji avadanlıq satılıb. Həyata keçirilən tədbirlər öz bəhrəsini verib, 2014-cü ilin məhsulu üçün 17 min 112 hektar sahədə əkin keçirilib.

Rayonda əkinçiliyin aparıcı sahələrindən birini taxılçılıq təşkil edir. 2014-cü ildə bölgədə 9 min 184,1 hektar zəminin taxılı biçilib, 28 min 249 ton məhsul istehsal edilib ki, bu da hər hektar üzrə 30,8 sentner “sarı kəhrəba” deməkdir.

Ötən ilin payızında bu ilin məhsulu üçün 7429 hektar sahəyə payızlıq taxıl toxumu səpilib. Bunun 7315 hektarını buğda, 114 hektarını isə arpa təşkil edir. Yaxşı cücərti alınıb, əkinlərə qışda azot gübrəsi səpilib və hazırda taxıl sahələrində yaz-becərmə işləri aparılır. Yeri gəlmişkən deyək ki, taxıl rayonda



təkcə pay torpaqlarında deyil, həm də bələdiyyə və dövlət ehtiyat fondu torpaqlarında əkilir.

Əsas qida məhsullarından olan kartofun məhsuldarlığının artırılması da vacib məsələdir. 2014-cü ildə rayonda kartofçuluq sahəsində də yüksək nəticələr əldə olunub.

Şərurda elə kəndlər var ki, ildə iki dəfə kartof yetişdirilir. Buna misal kimi Ələkli, Xanlıqlar, İbadulla, Qışlaqabbas və digər kəndləri göstərmək olar. Ötən il rayonda 752 hektara kartof əkilib, 10 min 2 ton məhsul götürülüb, hektarın orta məhsuldarlığı 133 sentnerə çatdırılıb. Cari ilin məhsulu üçün də kartof əkiləcək sahələr payızda şumlanıb, şum altına kifayət qədər üzvi və mineral gübrələr verilib. Lazımı qədər keyfiyyətli toxum da tədarük olunub. Artıq bir neçə gündür ki, kartof əkininə başlanıb.

Şərurda torpaq adamları müxtəlif növ bostan-tərəvəz məhsullarının yetişdirilməsində zəngin təcrübəyə malikdirlər. 2014-cü ildə 471 hektardan 5266 ton bostan, 1569 hektardan 19 min 597 ton tərəvəz məhsulları tədarük olunub.

Rayon bağbanlarının da göstəriciləri ürəkaçandır. Onlar keçən il bağlardan 16 min 218 ton meyvə, 1318 ton üzüm dərərək satışa çıxarıb və emal müəssisələrinə göndəriblər. Keçən il təkcə əkinçilikdən 77 milyon 237,8 min manat gəlir götürülüb.

Şərurun kənd əməkçilərində əkinçiliklə yanaşı, heyvandarlığa da böyük maraq var. Muxtar respublikada heyvandarlıq məhsullarına olan tələbatın ödənilməsində bu bölgə xüsusi rol oynayır. Rayonda heyvandarlıq indi ən gəlirli sahə hesab olunur. Çəkilən zəhmətin qarşılığında əldə edilən yüksək qazanc isə kəndlinin yaxşı yaşamasını stimullaşdırır. İndi rayonun fərdi və fermer təsərrüfatlarında 34 min 140 baş qaramal, 119 min 845 baş davar, o cümlədən 33 dəvəquşu, 22 dəvə, 344 təsərrüfatda 8 min 952 arı ailəsi vardır. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bu sahənin dinamik və intensiv inkişafına əhəmiyyətli təsir göstərir. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında mütərəqqi texnologiya olan süni mayalanma işinin səmərəli təşkili də böyük əhəmiyyət kəsb edir. İndi rayonun təsərrüfatlarında 3 süni mayalanma məntəqəsi fəaliyyət göstərir. Keçən il 2 min 256 baş mal-qara süni yolla mayalandırılaraq onlardan 2 min 287 baş sağlam buzov alınıb. Bu, 2013-cü ildəkindən 616 baş çoxdur.

Zeyvə kəndində illik istehsal gücü 750 ton quş əti və 9 milyon yumurta olan quşçuluq təsərrüfatı fəaliyyət göstərir. Müəssisədə ayrıca kəsim sexi, ümumi tutumu 113 ton olan 3 soyuducu anbar vardır. Ötən il müəssisə tərəfindən 33 ton quş əti, 3 milyon 350 min ədəd yumurta istehsal olunub.

... Yaz fəsli ana təbiətə yenidən sığal çəkir. Ərik, alça ağacları ağ tülə bürünür, çöl-bayır güllərin, çiçəklərin dili ilə danışır. Hamı elliklə həyət-bacada, pay torpağında iş üstündədir. Axı sabahkı bol məhsulun əsası ilkin yaz günlərindən qoyulur.

Bəli, Şərurda artıq yaz-tarla işlərinə start verilib. Qış yuxusundan oyanan ana torpaq əmək adamlarının isti nəfəsi, hərarətli əlləri ilə cana gəlir. Traktorların gurultusu bərəkətli çöllərin lal sükutunu uzaqlara qovur, mal-qara sürüləri örüşlərə, otlaqlara çıxarılır, yaylaq mövsümünə hazırlıq işləri görülür. Hamı çalışır ki, hər iş vaxtında görülsün.

## Sədərəkdə aqrar sahənin inkişafı sürətlənir

*Aqrar sektorda islahatların aparılması istiqamətində hüquqi baza böyük əhəmiyyət daşıyır. Odur ki, kənd təsərrüfatında islahatlara başlanandan sonra bu sahədə çalışan fermerlərin xeyrinə bir sıra qanun və qərarlar qəbul edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2015-ci il tarixli Sərəncamı ilə 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi də bu sahənin sürətli inkişafına hesablanıb.*

Bu günün kənd təsərrüfatı işçisi təkcə ölkədaxili tələbatın ödənilməsi üçün məhsul istehsal etmir. Daxili tələbatın ödənilməsi vacib olduğu kimi, xarici bazara məhsul çıxarılması da önəmlidir. Buna görə qəbul olunan qanunlar daim təkmilləşdirilir və yeniləri qəbul edilir. Elə dövlət başçısının 16 yanvar 2014-cü il tarixli “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” Sərəncamı və 16 aprel 2014-cü il tarixli “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı da bu məqsədə xidmət edir.

2014-cü il dekabr ayının 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Ali Məclisin Sədri demişdir: ***“2015-ci ildə muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilməli, əhalinin ərzaq məhsulları ilə təminatı davamlı xarakter almalı, emal müəssisələri xammalla fasiləsiz təchiz edilməlidir. Muxtar respublikanın ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da kənd təsərrüfatına xüsusi diqqət yetirilməsini tələb edir. Qeyd olunanlar nəzərə alınaraq, 2015-ci il Naxçıvan Muxtar Respublikasında “Kənd təsərrüfatı ili” elan edilir”.***

2015-ci ilin ölkəmizdə, eləcə də muxtar respublikamızda “Kənd təsərrüfatı ili” elan olunması aqrar sahənin inkişafına təkan verəcək, mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin edəcək.

Torpaqların münbitliyinin qorunması, kəndlilərə ciddi güzəştlərin edilməsi aqrar sektorun inkişafında sabitliyə nail olmağa imkan yaradıb. Kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad ediliblər. Bu gün muxtar respublikanın torpaq mülkiyyətçiləri “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün də dövlət subsidiyalar verir. Bu qayğılardan kənd təsərrüfatı bölgəsi olan Sədərək rayonu da xeyli bəhrələnib. Təkcə ötən il bölgədə 13 milyon 12 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub.

Rayonda çiyələkdən tutmuş kartofa kimi hər cür məhsul yetişdirilir. Torpaq sahibkarları taxılçılığa, bostan-tərəvəzçiliyə və meyvəçiliyə daha çox üstünlük verirlər.

Düzdür, keçən ilin sonları, bu ilin əvvəli Sədərəkdə hava quraqlıq keçib. Odur ki, payızda torpağa taxıl toxumu səpən fermerlər, torpaq mülkiyyətçiləri o qədər də sevinməyiblər. Çünki ta qədimdən təcrübəli əkinçilər sınaqdan keçiriblər ki, qış qarlı keçəndə məhsul daha bol olur. Atalar havayı yerə “qar taxılın yorğanıdır” deməyiblər. Qar bitkiləri bir tərəfdən küləkdən, müxtəlif xəstəliklərdən qoruyursa, digər tərəfdən yaz gələndə əriyərək zəmiləri suvarır, torpaqda nəmlik qatı yaradır.

Ancaq neyləmək olar, heç kəs təbiətə, Tanrıya göstəriş verə bilməz... Təbiətdən asılı olduğu üçün əkinçi peşəsi çətindir, qeyri-müəyyəndir. Necə deyərlər, yağmadı yağış, bitmədi qamış. Yaxşı ki, bu il martın ikinci yarısından sonra rayonda yağışların yağması intensivləşdi, kəndlinin nigarançılığına son qoyuldu.

Bəli, artıq yazdan bəri torpaq oyanıb. Bu oyanış əkinçinin iş-gücündə də özünü göstərib. Artıq bol məhsul üçün 1719 hektar payızlıq taxıl zəmisinə azot gübrəsi verilib. Bu il də sahələrdən yüksək məhsul götürüləcəyi gözlənilir.

Ümumiyyətlə, Sədərəyin torpaq mülkiyyətçiləri 2014-cü ili yaxşı nəticələrlə yola salıblar: 2130,2 hektarın taxılı biçilib, 6146 ton məhsul istehsal olunub.

Sədərəkdə taxılçılıqla yanaşı, kartofçuluğun da inkişafı diqqət mərkəzindədir. Rayonda kartof əkini sahələri ildən-ilə genişləndirilir və məhsul istehsalı artırılır. Keçən il də istisna deyil. 96,1 hektardan 1815,4 ton kartof götürülüb. Bolluqdan xəbər verən bu fakt da maraqlıdır: rayonda darısqal olan köhnə bazarın yerində hər şəraiti olan geniş yeni bazar kompleksi yaradılıb. Bundan əlavə, sədərəklilər hər il Naxçıvan şəhərindəki kənd təsərrüfatı məhsullarının satış yarmarkasına da tonlarla kartof yola salırlar. Bu il isə kartof əkinləri 100 hektara çatdırılacaq.

Muxtar respublikamızın digər bölgələri kimi, Sədərək torpağı da tarixən yüksəkkeyfiyyətli meyvə və bostan-tərəvəz məhsulları ilə tanınıb. Xüsusən Sədərək üzümü adla deyilir. Təkcə ötən il rayonda 4881,7 ton tərəvəz, 2124,1 ton bostan məhsulları, 488 ton meyvə və 1291 ton üzüm yığılıb.

Kənd təsərrüfatının inkişafına əngəl olan problemlərdən biri əkin sahələrinin su ilə təminatıdır. Sədərək rayonunda da bu sarıdan vəziyyət yaxşı deyildi. Bunu nəzərə alaraq 2014-cü ildə 1500 hektar sahəni suvarmaq üçün Araz çayından qidalanan Şir arxı üzərində yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Yaz-tarla işlərinə hazırlıqla əlaqədar 115 subartezian quyusu işlək vəziyyətə gətirilib, 4,4 kilometr torpaq, 43 kilometr beton kanal, 191 kilometr ara arxı təmizlənib.

Rayonda kənd təsərrüfatı məhsulları istehsalında heyvandarlığın da çəkisi böyükdür. Ona görə də Sədərəyin hər bir kənd sakini heyvandarlığı başlıca gəlir mənbəyi sayır. Mal-qaranın, qoyunların, quşların, arı ailələrinin sayına və məhsul istehsalına görə böyük nailiyyətlər qazanılıb. Bölgədə iribuynuzluların sayı 2764 başa, xırdabuynuzluların isə sayı 15 min 894 başa çatdırılıb. Quşların sayı artaraq 17 mini ötüb. Rayon üzrə 624 arı ailəsi artıb, ət istehsalı (diri çəkidə) 403 ton, süd istehsalı 1720 ton, yun istehsalı 20,8 ton, yumurta istehsalı 1 milyon 345 min ədəd olub.

Bu günlərdə rayon İcra Hakimiyyətində yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar torpaq sahiblərinin, fermerlərin, icra nümayəndələrinin, bələdiyyə üzvlərinin iştirakı ilə yığıncaq keçirilib. Yığıncaqda mövcud vəziyyət təhlil olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib. Tədbir iştirakçıları ölkə Prezidentinin “Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2 mart 2015-ci il tarixli Sərəncamından söz açıblar. Sərəncamda məhsul istehsalçılarının toxuma tələbatının dolğun şəkildə ödənilməsi məqsədilə Dövlət Toxum Fondunun yaradılmasının qərara alınması torpaq mülkiyyətçiləri tərəfindən rəğbətlə qarşılanıb.

“Kənd təsərrüfatı ili”ndə aqrar sahə ilə bağlı bir çox məsələlərin həllinə yönəlmiş əməli işlərə sərhəd bölgəsi Sədərəkdə də start veriləcək. Xüsusilə su kanallarının çəkilməsi, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması, rayona müasir texnikaların gətirilməsi, istehsal olunan məhsulların, bilavasitə, sahədə kəndlidən alınması, tədarükü, saxlanılması, satışı və digər məsələlər öz həllini tapacaq.

**Səhifəni hazırladı ✍ Cəfər ƏLİYEV**

# dünən Naxçıvan bu gün

## Təbiət imdad diləyir

### Balta yaman moddadır

*Builki şaxtalı qışda ən çox işlənən təsərrüfat aləti hansıdır? Əlbəttə, balta. 20-30 illik ağacların ömrünə vurulan balta. İndi kənd yerlərində çox adamların qoltuğunda balta görmək olar. Baxırsan ki, ikibir-üçbir cuqquldaşıb özlərini verirlər meşə zolaqlarına. Balta, mişar səsi, kökündən ayrılan ağacların "ahu-naləsi" qarışır bir-birinə. Qollu-budaqlı ağaclar, yerə sərildikcə onlara sığınan körpə tinglər yetim qalmış balalar kimi əsməcə tuturlar. Sanki onlar bu titrəyişləri ilə deyirlər: "Bizi yetim qoyub hara gedirsən, ana?"*

Vaxtilə əzəmətinə, gözəlliyinə tamaşa etdiyimiz ağaclara indi müştəri gözü ilə baxırıq. Bax bu ağac bir həftə bəs edər, o birisi isə 15 gündən də çox görər. Beləcə, ağacların kökünə balta vururuq. Kimisi sevinir, kimisinin də ürəyindən qara qanlar axır. Bəziləri də bu ağacları əkənlərə, onları ərsəyə gətirənlərə rəhmət diləyir.

Bəli, ermənilərin törətdiyi müharibənin yurdumuza gətirdiyi bu bəlalı günlərdə yenə ümidimiz ağaclara gəldi. Ağaclar insanlara həyan oldu, həyatlarını onlara qurban verdi. İllərboyu qamətinə, gözəlliyinə heyran olduğumuz meyvə və bəzək ağacları bu gün minlərlə evin istisinə, işığına çevrildi.

Bu sətirləri yazarkən camaatı da qınamaq istəmirəm. Nə etmək olar? Kömür yox, neft yox, qaz yox. Zavallı insan soyuqdan donmamaq üçün çarpışır, mübarizə aparır. Baxırsan ki, cavan bir qadın balaca uşağı ilə bərabər iri bir budağı sürüyüb aparır. Ağsaqqal kişi əl arabası ilə çırpı daşıyır. Nə etməli? Lənətə gəlsin bədnam, yüzsifətli qonşuları, bu müharibəni törədənləri.

Amma nə qədər ağır olsa da, ağacları qorumalıyıq. Axı ağaclar bizim həyatımız, yaşayışımız, sağlamlığımızdır. Bir ağacı ərsəyə gətirmək üçün azı 15-20 il vaxt lazımdır. Gəlin heç olmasa, o körpə tinglərə qıymayaq. Cah-calalı dağılmış, viran olmuş meşə zolaqlarının içərisindən tək-tük göyə boylanan köməksiz körpə tinglərə. Heç olmasa kənd yollarındakı, dayanacaqlardakı ağaclara dəyməyək. Yayın qızmar günlərində körpələrimizə həyan olar, onlara sərinlik gətirər.

Çətin günün ömrü az olar. Budur, kiçik çillənin də qurtarmasına bir şey qalmadı. Bir azdan baharın ılıq nəfəsi duyulacaq, yamyaşıl yamaclar, laləli-nərgizli dağ ətəkləri göz oxşayacaq. Lakin bu gözəlliyin içərisində məzar daşları kimi görünən ağac kötüklərinin miskin görkəmi illərboyu qəlbimizi ağrıdacaq.

***"Şərq qapısı" qəzeti***
***13 fevral 1993-cü il***

**Naxçıvanın yayda qızmar istisindən, qışda isə sərt şaxtasından həmişə şikayətlənmişik. Quru kontinental iqlimə malik olan bu regionun insanları da təbiəti kimi dözümlü, istənilən hava şəraitinə uyğunlaşan olublar. Ancaq yaşadığımız bu diyarda insanların təbiətlə üz-üzə dayandığı, yaşamaq üçün ona ziyan vurduğu dövrlər də olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşamağa məcbur edilmiş Naxçıvan insanı sərt soyuqlardan qorunmaq üçün təbiətə üz tutub.**

*Yaşıl guşə*

## Naxçıvan yaşıllıqlar diyarına çevrilib

İllər uzunu öz əli ilə nazını çəkdiyi ana təbiətə asi kəsilməyə məcbur olub, öz həyatını davam etdirmək üçün digər canlıların – ağacların həyatına son verməyi gözə alıb. Daim təbiəti qınamağa adət etmiş insanoğlu bu dəfə özü qınaq obyektinə çevrilib. Bütün bunlara göz yumanlar da tapılıb, etiraz səsini ucaldanlar da, yaranmış vəziyyəti qəzet səhifələrinə çıxaranlar da. Məhz həmin dövrlərdə təbiətin təbii vəziyyətini bir daha gözlərimiz önündə canlandıran "Balta yaman moddadır" yazısı soyuq bir qış günündə – 13 fevral 1993-cü ildə "Şərq qapısı" qəzetində dərc olunub. Bu məqalənin yazılmasından nə az, nə çox, düz 22 il vaxt keçir. Az



vaxt deyil, amma uzun müddət də deyil. Təxminən, bir ağac ömrüdür. Elə bu yazıda da ağacların və onlara balta vuran insanların ittiham edildiyi, əslində isə ittiham edilməyəcək dövrdən bəhs edəcəyik. Həm də bu günün reallıqları çərçivəsində. Bugünkü reallıqları çərçivəyə sığdırmaq çətin olsa belə...

Naxçıvan 1990-1993-cü illər. Bu tarixin özünü xatırlamaq belə, bütün çətinlikləri bir yerdə təsəvvür etmək qədər çətindir. Blokada vəziyyətinə salınmış muxtar respublikada işıq, qaz, yanacaq kimi enerji problemləri ilə yanaşı, həm də ərzaq, nəqliyyat, rabitə və digər sosial-iqtisadi çatışmazlıqlar mövcud idi. Üstəgəl, muxtar diyarın təhlükəsizliyi də ciddi zərbə altında idi və bu vəziyyət bir neçə ildir ki, davam edirdi. Yeganə təsəlli ümummilli lider Heydər Əliyevin burada olması idi. Ulu öndərimizin şəxsi nüfuzu sayəsində bu qədim diyarda bütün sosial problemlərin həlli yolunda mühüm addımlar atılsa da, enerji məsələlərinin həllində hələ də böyük çətinliklər var idi. Sovet dövründə böyük dövlət xadiminin xidmətləri sayəsində burada qaz və enerji məsələləri öz həllini tapsa da, əsrin sonlarına doğru yaranmış ictimai-siyasi durum bütün nəqliyyat dəhlizlərinin bağlanmasına, ölkə paytaxtı ilə əlaqələrin kəsilməsinə və beləliklə, Naxçıvanın iflic vəziyyətə yuvarlanmasına şərait yaratmışdı. Buna görə də qədim Azərbaycan torpağında enerji məsələlərinin həll olunması xeyli müddət alacaqdı. Məhz belə bir şəraitdə muxtar respublikada mövcud olan yaşıllıqların məhv edilməsi, (əslində, bu yaşıllıqlardan istifadə olunması) kütləvi hal almışdı. Naxçıvanın sərt soyuğundan qorunmaq üçün insanlar onsuz da yaşıl örtüyü az olan diyarın meşəliklərində, bağlarında, yol kənarlarında olan ağacları kəsirdilər. Doğrudur, yaş ağacı kəsmək istənilən halda böyük günah sayılsa da, blokada vəziyyətində olan bir regionda başqa alternativ variant da yox idi. Həmin mürəkkəb dövrdə ulu öndər Heydər Əliyevin hərtərəfli dəstəyi hesabına nəşr olunan "Şərq qapısı" qəzetində dərc edilən, yuxarıda adıçəkilən yazıda müəllif kömürün, qazın, elektrik enerjisinin olmamasından, zavallı insanların yaşıllıqları məhv etməsindən bəhs edir. Cavan bir qadının balaca uşağı ilə iri bir ağac budağını sürüyüb aparmasını, ağsaqqal kişinin əl arabası ilə çırpı daşımasını ürəkağrısı ilə yazır. İllərboyu qamətinə, gözəlliyinə heyran olduğumuz meyvə və bəzək ağaclarının minlərlə evin istisinə, işığına çevrildiyini qeyd edir, bu vəziyyəti yaradanları – bədnam erməniləri lənətləyir.

Bəli, blokada Naxçıvanı təkcə enerji və ərzaq problemləri ilə üz-üzə qoymamışdı, eyni zamanda onun təbiətinə ciddi ziyan vurmuşdu. Hətta iş o yerə çatmışdı ki, çöl və dağlıq ərazilərdə yabanı şəkildə bitən kol-ağacların da dibi qazılaraq isinmək üçün evlərə daşınırdı. Həmin dövrdə yaşıllıqlar muxtar respublikanın ümumi ərazisinin 0,6 faizini təşkil edirdi. O dövrdə kəsilən ağacların yerinə yeni fidanların əkilməsi məqsədilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirilən iməciliklərin 1995-ci ildən sonra uğurla davam etdirilməsi Naxçıvanı yaşıllıqlar diyarına çevirdi. Bu dəfə balta yox, bel, kürək işə düşdü. Muxtar respublika rəhbərinin təbiətə olan sevgisi və iməciliklərdə iştirakı diyarın digər sakinlərinə nümunə oldu. Tezliklə muxtar respublikanın bütün bölgələrində – rayon mərkəzlərində, kənd



yaşayış məntəqələrində, yol kənarlarında, yeni yaradılan infrastruktur obyektlərinin ətrafında, hətta heç zaman su üzü görməyən çöllərdə belə, kütləvi ağac əkininə start verildi. Quru kontinental iqlimə malik Naxçıvan coğrafiyasında ağac əkib-böyütməyin çətinliyi mütərəqqi ideyaların tətbiqini zəruri edirdi. Buna görə də ağacların suvarma suyuna olan tələbatını ödəmək üçün ölkəmizdə damcı üsulu ilə ağacların suvarılması təcrübəsi ilk dəfə Naxçıvan Muxtar Respublikasında həyata keçirildi. Qısa zamanda bir çox bölgələrimizin ilanmələyən çöllərində belə, müxtəlif tinglərin əkininə başlandı. Zaman keçdikcə muxtar respublikada hər rayonun özünəməxsus bağ əkinçiliyi ənənələri tətbiq olundu. Nəticədə, ağacların daha məhsuldar və bir zamanlar məhv edilmiş növlərinin bərpası üçün geniş imkanlar açıldı. Artıq 20 ilə yaxın bir dövrü əhatə edən bu tədbirlər indi öz müsbət nəticəsini göstərməkdədir. İndi muxtar respublikada yaşıllıqların həcmi 12 faizi ötüb. Quru kontinental iqlimə malik ərazilər üçün bu, çox böyük rəqəmdir. Etiraf etmək lazımdır ki, hətta mülayim iqlimə malik regionlarda belə, 20 il müddətində belə bir nəticəyə varmaq çox çətindir. Ötən ilin statistikasına nəzər salsaq, görərik ki, təkcə 2014-cü ildə muxtar respublikada 536,5 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilib. Bu tədbirlər çərçivəsində 440 mindən çox ağac və gül kolu əkilib. Cari ildə də xeyli ağac əkilməsi planlaşdırılıb. 540 hektar ərazidə həyata keçiriləcək yaşıllaşdırma tədbirlərində 200 hektar sahə meyvə tingləri üçün nəzərdə tutulub.

Həyata keçirilən tədbirlər sırasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" mühüm əhəmiyyət daşıyan dövlət sənədidir. Dövlət proqramının qəbul edilməsinin başlıca məqsədi torpaq-iqlim xüsusiyyətlərinə uyğun, yüksək istehlak qabiliyyətinə malik meyvə bağlarının əkilməsindən və unudulmaqda olan məhsuldar sortların bərpasından, ümumilikdə isə Naxçıvanın özünəməxsus meyvəçilik ənənələrinin özünə qaytarılmasından ibarətdir. Bundan əlavə, bir zamanlar Naxçıvanın təbiətinə vurulmuş zərərlər bu diyarın fauna və florasının azalmasına gətirib çıxarmışdı. Bu sahədə görülmüş işlərin nəticəsidir ki, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılıb. Ölkə Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması isə bu istiqamətdə həyata keçirilən tədbirlərin məntiqi davamıdır. Mühafizə olunan yeni təbiət ərazilərinin yaradılması məhz ulu öndərin ekoloji siyasətinin uğurlu davamı kimi qəbul olunur.

*Bəli, xalqımızın çox gözəl bir deyimi var: "Çətin günün ömrü az olar". Artıq bütün çətinliklər geridə qalıb. Bütün sosial problemləri həll olunan, daimi elektrik enerjisi və təbii qazla təmin edilən müasir Naxçıvanda indi gənc nəslin nümayəndələri bu çətinlikləri hər zaman xatirə kimi qəbul edəcəklər. Belə çətin və ürəkağrıdan xatirələrdən ibrət alıb gələcək nəsillərə daha gözəl xatirələr daşıyacaqlar. Elə baltaların "moddan düşdüyü" indiki dövrdə bir azdan yamyaşıl yamaclar, laləli-nərgizli dağ ətəkləri göz oxşayacaq. Ancaq bu gözəlliyin içərisində miskin görünəcək ağac kötüklərinə rast gəlinməyəcək. Çünki artıq Naxçıvanın yaşıl ərazilərində belə ağac kötüklərindən əsər-əlamət qalmayıb. İndi qəlbimizi də rahat tuta bilərik. Çünki baltaların "vəzifəsi" dəyişməsə də, indi onlar, sadəcə, quru odunları doğramaq üçün işə yarayır...*

**Səbuhi HƏSƏNOV**

## "Hilal"ın məhsulları ölkəmizin digər regionlarında da satışa çıxarılacaq

*Muxtar respublikamızda bazar iqtisadiyyatının tələblərinə uyğun sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə muxtar respublikamızda fəaliyyət göstərən sahibkarlara maliyyə dəstəyi göstərilir, banklar və kredit təşkilatları tərəfindən onlara güzəştli kreditlər verilir. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, rəqabətqabiliyyətli müəssisələr yaradılıb.*

Daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Hilal" Ət-Süd Məhsulları Emalı Müəssisəsidir.

Sahibkar Fikrət Əliyarovun verdiyi məlumata görə, daxili bazarı keyfiyyətli ət-süd məhsulları ilə təmin etmək məqsədilə 2000-ci ildə bina icarəyə götürüb fəaliyyətə başlanılıb, müəssisənin keyfiyyətli ət-süd məhsulları ilə təmin olunması üçün yardımçı təsərrüfat yaradılıb. Lakin uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yaranıb. Bu müəssisə də dövlət qayğısından bəhrələnib. Layihəyə uyğun olaraq, istehsal sexi, hazır məhsulların hisə verilməsi üçün sobalar, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, iaşə xidməti göstərilməsi üçün yeməkxana və digər yardımçı otaqlardan ibarət yeni bina inşa olunaraq 2010-cu ilin mart ayında istifadəyə verilib. Müxtəlif çeşiddə daha keyfiyyətli ət məhsulları istehsal etmək məqsədilə müasir texnoloji avadanlıqların alınması üçün 2011-ci ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 120 min manat güzəştli kredit ayrılıb. İspaniyanın "Fatosa", Almaniyanın "Handtmann" və "POLY-clip" firmalarından istehsal gücü saatda 3 ton olan avadanlıqlar alınıb quraşdırılıb, istehsal prosesi tam avtomatlaşdırılıb. İstehsal olunan məhsulların müəyyən olunmuş temperaturda ayrı-ayrı topdan və pərakəndə satış obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması üçün soyuducu kamera ilə təmin olunmuş "Mersedes" markalı avtomobil alınıb.

Yüksək keyfiyyəti ilə seçilən yerli məhsul artıq xaricdən idxal olunan eyniadlı məhsulları bazardan sıxışdırıb çıxarır. Daxili bazarın tələbatı öyrənilməklə istehlakçılara müxtəlif çeşidlərdə məhsullar təqdim edən müəssisədə 0,5 kiloqramlıq qida üçün yararlı plastik taralarda yarımfabrikant məhsul və "Qəlyanaltı" adı ilə yeni əla növ sosiska satışa çıxarılıb. Ümumilikdə, yüksəkkeyfiyyətli bişmiş, hisə verilmiş kolbasa, sosiska və sardelka istehsal edilərək "Hilal" əmtəə nişanı ilə satışa çıxarılır. Fəaliyyətə başladığı ilk illərdə 2-3 çeşiddə məhsul istehsal edilən müəssisədə hazırda 20-25 çeşiddə ət məhsulları istehsal olunur. Nəfis tərtibatla bəzədilmiş, xüsusi paketlərdə ayrı-ayrı ticarət obyektlərində satışa çıxarılan məhsulların üzərində tərkibi, saxlanma şəraiti, istehsal tarixi və saxlanma müddəti göstərilir. İstehsal olunan məhsullar sifarişə uyğun olaraq, ölkəmizin paytaxtı Bakı şəhərinə də göndərilir. Yaxın vaxtlarda Azərbaycanın digər regionlarında da satışa çıxarılması nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**

# Biz o yurda qayıdacağıq

***Kəlbəcər rayonunun işğalından 22 il ötür. 1993-cü il aprel ayının 2-də Ermənistan silahlı qüvvələri Qafqazın zümrüd qaşı hesab olunan Kəlbəcər rayonunu işğal ediblər. Kəlbəcər Azərbaycanın qədim yurd yerlərindən biridir. "Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması "Kevliçer" kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", çer/car "qala" mənasını verir. Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtərçay boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur. Buna görə də mütəxəssislər toponimi kevil/kəvl və qədim türk dillərindəki cər (qaya, yarğan) komponentləri ilə əlaqələndirirlər.***



Bu qədim Azərbaycan torpağındakı oronomik toponimlərin hamısı türk mənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də həmin toponimlərdə yaşayır. Kəlbəcər ən qədim insan məskənlərindən biridir. Bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır. Bu dövr isə 4 milyon ildən artıq bir tarix deməkdir. Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb.

Rayon ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri aşkar edilib.

Kəlbəcərdə "Türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Tirkeşəvənd, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Deməli, təkcə sıradan bir rayonumuz deyil, həm də bəşəriyyətin beşiklərindən biri sayılan ərazimiz işğal edilib.

Kəlbəcər işğal olunmazdan, təqribən, bir il əvvəl, yəni 1992-ci il aprel ayının 7-dən 8-nə keçən gecə ermənilər rayonun Ağdaban kəndində soyqırımı hadisəsi törədiblər. Azərbaycanlıları öz doğma torpaqlarından qovub çıxarmaq məqsədilə Kəlbəcər rayonunun 130 evdən ibarət olan Ağdaban və Çayqovuşan kəndləri yandırılıb.

Ağdaban faciəsini törədən erməni vandalları Azərbaycanın daxilində baş qaldıran xaosdan, anarxiyadan, özbaşınalıqdan istifadə edərək daha çox qətllər törətmək, daha çox torpaq işğal etmək üçün hücumlarını davam etdiriblər. 1993-cü il mart ayının 27-dən – aprelin 2-dək 50 min nəfərdən çox əhalisi və 1936 kvadratkilometr ərazisi olan Kəlbəcər rayonu, o cümlədən 10 min nəfərə yaxın əhalisi olan Kəlbəcər şəhəri işğal olunub. Ümumiyyətlə, erməni təcavüzü nəticəsində ilkin hesablamalara görə, rayona ovaxtkı qiymətlərlə 761 milyon ABŞ dolları dəyərində maddi ziyan dəyib. Kəlbəcərin işğalı zamanı 511 nəfər şəhid olub.

Bu qanlı olay zamanı 1 şəhər, 1 şəhərtipli qəsəbə, 129 kənd erməni qəsbkarlarının işğalı altına düşüb. Rayonda 13 min yaşayış evi, 500 ictimai bina, 96 orta məktəb, 76 səhiyyə müəssisəsi, 62 körpü, 37852 hektar meşə sahəsi, 172 mədəniyyət ocağı talan edilib, yandırılıb və vəhşiliklə dağıdılıb.

Xalqımızın başına gətirilən digər soyqırımlar, işğal olunmuş ərazilərimiz kimi, Kəlbəcərin işğalına da ilk dəfə öz münasibətini bildirən, bu hadisəni kəskin pisləyən, günahkarların cəzalandırılmasını tələb edən ümummilli liderimiz Heydər Əliyev olub. Ulu öndərimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1993-cü il aprelin 1-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclasında deyib ki, bu günlər cəbhə bölgələrindən, xüsusilə Kəlbəcərdən çox həyəcanlı xəbərlər alınır. Erməni ordusu Kəlbəcərə qarşı genişmiqyaslı hücuma keçərək bu rayonu işğal etməyə çalışır. Ulu öndərimiz Kəlbəcərə erməni hücumlarını kəskin pisləyib, ölkə rəhbərliyini rayonun müdafiəsinə çağırıb.

Kəlbəcərin işğalından sonra Türkiyə Cümhuriyyəti Ermənistanla sərhədini bağlayıb. Bu gün erməni lobbisinin, həmçinin bəzi maraqlı dövlətlərin etirazlarına baxmayaraq, qardaş ölkə rəsmi İrəvanla diplomatik əlaqə qurmur, sərhədlərin açılması məsələsinin isə yalnız Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsindən sonra mümkün olacağını qətiyyətlə bəyan edir.

1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edilib. Qətnamədə bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, eləcə də sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyi bir daha təsdiq olunurdu. Tərəflərin BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin yerinə yetirilməsi və ATƏM (indiki ATƏT) çərçivəsində danışıqlar prosesinin bərpa olunması barədə Minsk qrupuna daxil olan 9 ölkənin nümayəndələrinin Romada işləyib hazırladığı təklifləri qəbul etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri Azərbaycanın Ağdam və Ağdərə bölgələrində döyüş əməliyyatlarını gücləndirib.

Ermənistan silahlı qüvvələrinin ərazilərimizin, o cümlədən Kəlbəcər rayonunun işğalında iştirakı, qeyri-insani hərəkətləri və qəddarlığı beynəlxalq qurumların sənədlərində də öz əksini tapıb. Məsələn, bu işğal qeyri-hökumət təşkilatı olan "Human Rights Watch"un "Azərbaycan: Dağlıq Qarabağda münaqişənin 7 ili" (Nyu-York, 1994-cü il, səh. 67-73) məcmuəsində də təsdiq olunub. Bundan əlavə, 1998-ci ildə Ermənistanda keçirilən seçkilər zamanı səyyar səsvermə qutuları Kəlbəcər rayonunda yerləşdirilən erməni əsgərlərinin səsini toplamaq üçün Ermənistan Respublikasının dövlət sərhədindən keçirilib. Bu da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Ermənistanda 1998-ci il martın 16-sı və 30-da keçirilən prezident seçkilərinə dair 1998-ci il 10 aprel tarixli yekun hesabatında öz əksini tapıb.

Hazırda Kəlbəcər rayonunun əhalisi Azərbaycanın 56 rayon və şəhərinin 707 yaşayış məntəqəsində məcburi köçkün şəraitində yaşayır. BMT-nin, ATƏT-in və digər nüfuzlu beynəlxalq qurumların prinsiplərinə zidd olaraq, 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılıb və bu proses bu gün də davam etdirilir.

Ermənilər, sözün həqiqi mənasında, barbar, vəhşi bir xalq olduğunu Kəlbəcərin işğalı zamanı da göstərib. O vaxtlar çoxlu sayda tarixi-mədəni abidələr erməni silahlı qüvvələri tərəfindən vəhşicəsinə dağıdılıb. Rayonun Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Cəlal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçanlı kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb. Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da bu gün işğal ərazisində qalmaqdadır.

Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər öz ölkələrində məcburi köçkün həyatı yaşayan insanlara belə bir inam aşılayıb ki, tezliklə qüdrətli ordumuz işğal olunmuş ərazilərimizi azad edəcək, məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıdacaqlar. Bu inam hətta tarixi Qərbi Azərbaycan torpaqlarında yaşayan soydaşlarımızın öz dədə-baba yurdlarına sahiblənməsini təmin edəcək qədər güclü faktora çevrilməkdədir. Çünki bu inam qüdrətli və milli əsaslara söykənən dövlətçilik prinsiplərindən, inkişaf edən iqtisadiyyatdan, güclənən hərbi sənaye potensialından, Vətəninə və vətəndaşına ən ali dəyər və sərvət kimi yanaşan dövlət başçısının vətənpərvərliyindən doğur. Deməli, hələ hər şey bitməyib.

***Uzun zamandan bəri arzuladığımız zəfər günü qarşıdadır, elə Kəlbəcərin işğaldan azad ediləcəyi gün də. Ümummilli lider Heydər Əliyevin sözləri ilə ifadə etsək: "Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar.***

**Rauf ƏLİYEV**

# Soyqırımı gününə həsr olunmuş sərgi başa çatıb



Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında AMEA-nın müxbir üzvü, siyasi karikaturaçı Kərim Kərimovun 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş fərdi sərgisinin üçüncü gününün qonaqları Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Tibb Kollecinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri, digər elm və təhsil müəssisələrinin kollektivləri olub. Sərgiyə gələnlər müəllifin soyqırımını əks etdirən əsərlərinə böyük maraqla baxıblar.

Sərgiyə tələbələri ilə gələn Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Südabə Məmmədova dedi ki, Azərbaycanda son illər karikatura janrının inkişafı ölkədə gedən ümumi proseslərin bir hissəsi, azad cəmiyyətin göstəricisidir. Karikaturaçı Kərim Kərimovun sərgisinin yüksək səviyyədə təşkil olunması və bu sərgiyə marağın böyük olması onu göstərir ki, muxtar respublikada sənətə və sənətkara böyük qayğı və diqqət var, bunun müqabilində ictimaiyyətin müxtəlif sənət növlərinə marağı böyükdür.

Heydər Əliyev adına Hərbi Liseyin kursantı Onur Heydərli isə bildirdi ki, Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş bu sərgi xalqın mənəviyyatına, milli qüruruna və mənliyinə böhtanlar atan, siyasi və hərbi təcavüz həyata keçirən ermənilərin vəhşiliklərinin ictimaiyyətin diqqətinə çatdırılması yönündə atılan növbəti addımdır. Bu sərgidə yer alan əsərlər dünyada gedən müharibələrin səbəbləri, imperializmin fəsadları, 31 mart hadisələri, Qarabağ həqiqətləri, Xocalı soyqırımı haqda gəncliyin bütün təfərrüatı ilə məlumatlar almasına imkan yaradır. Bu sərgi ermənilərin yüz illər boyu xalqımıza qarşı yürütdüyü soyqırımı siyasətini daha mükəmməl formada ustalıqla təqdim edir.

Məlumat üçün bildirək ki, martın 30-da açılan, beynəlxalq terrorizmi, separatizmi və soyqırımını ifşa edən sərgidə rəssamın 113 karikatura əsəri nümayiş etdirilib.

**Səbuhi HÜSEYNOV**

# Voleybol birinciliyinə start verilib



***Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə Naxçıvan Muxtar Respublika açıq birinciliyinə start verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi birincilik 3 gün davam edəcək.***

Yarışın açılış mərasimində öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərasimdə çıxış edən Gənclər və İdman nazirinin müavini Məcid Seyidov qeyd etdi ki, son illər muxtar respublikada idman sahəsinə göstərilən diqqət və qayğı nəticəsində idmançılarımız hər bir yarışda uğurla çıxış edirlər. Bu gün keçirilən voleybol birinciliyi bir daha sübut edir ki, muxtar respublikada idmanın inkişafı yüksək səviyyədədir.

Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev isə çıxışında keçirilən birinciliyin qaydaları haqda iştirakçıları məlumatlandırdı və onlara uğurlar arzuladı.

Yarışda 8 komanda iki yarımqrupda mübarizə aparır. A qrupunda "DİN" (Daxili İşlər Nazirliyinin komandası), "Şahbuz", "Sədərək" və "Ordubad", B qrupunda isə "Şərur", "Culfa", "Babək" və "Kəngərli" komandaları ilk iki pillə üçün meydana çıxdılar. Qrupda ilk iki pillədə yer alan komandalar yarımfinala yüksələcək və həlledici qarşılaşma üçün mübarizə aparacaqlar.

Birinciliyi idarə edən hakimlərə gəlincə, yarışın yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan Respublikası Voleybol Federasiyasının hakimlər briqadası görüşlərdə fit çalır. Yarışın baş hakimi beynəlxalq dərəcəli hakim Oqtay Musayevdir. Digər referilər isə beynəlxalq və respublika dərəcəli hakimlər Eldar Zülfüqarovla Rüstəm Cəfərovdur.

Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının təşkil etdiyi birincilikdə komandalar həmçinin Naxçıvanda yerləşən muzey və tarixi abidələrlə də tanış olacaqlar. Belə ki, voleybolçular Heydər Əliyev Muzeyi, Duzdağ Fizioterapiya Mərkəzi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Naxçıvan Dövlət Tarix Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və Bayraq Meydanı ilə tanış olub, Əshabi-Kəhf ziyarətgahını ziyarət edəcəklər.

Artıq birinciliyin ilk günündə bir sıra oyunlar keçirilib. Günün ilk qarşılaşmasında meydana A qrupunda mübarizə aparan "Sədərək" və "Şahbuz" komandaları çıxdı. Daha üstün oyun sərgiləyən sədərəklilər hər üç seti qələbə ilə başa vurdular – 3:0. Qrupun digər oyununda "DİN" "Ordubad" komandasını sınağa çəkdi. Bu görüşdə birincilər bacarıqlarını kifayət qədər yaxşı nümayiş etdirdilər – 3:0. B qrupunun ilk matçında isə "Şərur" komandası Kəngərli həmkarlarını quru hesabla məğlub etməyi bacardılar – 3:0. Günün ən gərgin qarşılaşması "Babək" və "Culfa" komandaları arasında oldu. 5 set davam edən oyunda meydanı qələbə ilə culfalılar tərk etdilər – 2:3.

Dünən keçirilən digər oyunlarda aşağıdakı nəticələr qeydə alınıb:

*"DİN"-3 – "Şahbuz"-0*

*"Sədərək"-3 – "Ordubad"-0*

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 267